Group of States against Corruption
Groupe d'États contre la corruption

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Qəbul edilib: 29 Oktyabr 2020
Nəşr olunub: 19 May 2021

**İctimai**
GrecoRC4(2020)16

# 4-CÜ DƏYƏRLƏNDİRMƏ RAUNDU

Parlament üzvləri, hakimlər və prokurorların fəaliyyətində korrupsiyanının qarşısının alınması

# Azərbaycan üzrə İkinci Uyğunluq Hesabatına dair Əlavə

GRECO-nun 86-cı Plenar İclasında qəbul edilmişdir
(26-29 Oktyabr 2020-ci il, Strasburq şəhəri)

IV DƏYƏRLƏNDİRMƏ RAUNDU

GRECO Secretariat
Council of Europe
F-67075 Strasbourg Cedex
☎ +33 3 88 41 20 00

www.coe.int/greco

Directorate General I
Human Rights and Rule of Law
Information Society and Action
against Crime Directorate

## I. MÜQƏDDİMƏ

1. İkinci Uyğunluq Hesabatının əlavəsində Azərbaycan rəsmiləri tərəfindən Azərbaycana dair "Parlament üzvləri, hakimlər və prokurorların fəaliyyətində korrupsiyanının qarşısının alınması"na həsr olunmuş Dördüncü Raund Dəyərləndirmə Hesabatı çərçivəsində (bax paraqraf 2) verilmiş tövsiyələrin icra vəziyyəti ilə bağlı həyata keçirilmiş tədbirləri qiymətləndirir.

2. Azərbaycan üzrə Dördüncü Raund Dəyərləndirmə Hesabatı GRECO-nun 65-ci Plenar İclasında (10 Oktyabr 2014-cü il) qəbul edilmişdir və Azərbaycanın razılığı ilə 02 aprel 2015-ci il tarixdə ictimaiyyətə açıqlanmışdır (Greco Eval IV Rep (2014) 2E).

3. Uyğunluq Hesabatı GRECO-nun 74-cü Plenar İclasında (02 Dekabr 2016-cı il) qəbul edilmiş və Azərbaycanın razılığı ilə 17 mart 2017-ci tarixdə ictimaiyyətə açıqlanmışdır (GrecoRC4(2016)11).

4. İkinci Uyğunluq Hesabatı GRECO-nun 82-ci Plenar İclası zamanı qəbul edilmişdir (22 Mart 2019-cu il) və Azərbaycan Hökumətinin icazəsindən sonra 18 iyun 2019-cu il tarixdə ictimaiyyətə açıqlanmışdır (GrecoRC4(2019)3). GRECO-nun qaydalarına əsasən, Azərbaycan hökuməti tövsiyələrin icrasına dair mövcud vəziyyəti əks etdirən Hesabat təqdim etmişdir. Həmin hesabat 17 Yanvar 2020-ci il tarixdə daxil olmuş və sonradan təqdim edilmiş məlumatlarla birlikdə İkinci Uyğunluq Hesabatına dair Əlavənin tərtib edilməsi üçün əsas kimi qəbul edilmişdir.

5. İkinci Uyğunluq Hesabatına dair Əlavə, əvvəlki qəbul edilmiş İkinci Uyğunluq Hesabatından bəri gözlənilən tövsiyələrin (məsələn, iii-dən vi-ya kimi, ix, xii, xiv və xx tövsiyələri) tətbiq edilməsində əldə olunan irəliləyişi qiymətləndirir və bu tövsiyələrə uyğunluq səviyyəsinin ümumi qiymətləndirilməsini təmin edir.

6. GRECO uyğunluq prosesinə müvafiq olaraq məruzəçilərin təyin edilməsini Finlandiya və Gürcüstana tapşırmışdır. Məruzəçilər qismində Finlandiyadan cənab Jouko HUHTAMAKİ və Gürcüstandan xanım Pelagia MAKHAURİ təyin olunmuşlar. Uyğunluq hesabatının tərtib edilməsində GRECO-nun Katibliyi onlara dəstək vermişdir.

## II. TƏHLİL

7. GRECO dəyərləndirmə hesabatında Azərbaycana 21 tövsiyə təqdim etmişdir. GRECO İkinci Uyğunluq Hesabatında i, ii, vii, viii, x, xi, xiii, xv, xvi, xvii, xviii, xix və xxi tövsiyələrin qənaətbəxş şəkildə icra olunmasını və ya qənaətbəxş şəkildə həll edilməsini bildirmiş, iii, v, vi, xii və xiv tövsiyələrin qismən icra olunmasını, iv, ix və xx tövsiyələrin isə icra olunmadığını qeyd etmişdir. Yerinə yetirilməsi gözlənilən səkkiz digər tövsiyəyə uyğun icra vəziyyəti aşağıdakı kimidir.

8. Ümumi olaraq, Azərbaycan Hökuməti Parlamentin 04 dekabr 2019-cu ildə buraxılmasını və 09 fevral 2020-ci ildə keçirilmiş ümumi seçkilərə istinad edir. Səlahiyyətli orqanlara istinadən isə, bu kimi proseslər Parlament üzvlərinə aid bir sıra tövsiyələrin həyata keçirilməsinə mane olmuşdur.

*Parlament üzvlərinin fəaliyyətində korrupsiyanın qarşısının alınması*

**Tövsiyə iii.**

9. *GRECO tövsiyə etmişdir ki, deputatların əlavə fəaliyyətləri effektiv nəzarət obyekti olsun.*

10. Xatırladılır ki, bu tövsiyə İkinci Uyğunluq Hesabatında qismən icra olunmuşdur. Xüsusən GRECO etik davranış qaydalarına nəzarət və rəhbərliyin həyata keçirilməsində və Deputatların etik davranış qaydaları haqqında Qanunda nəzərdə tutulmuş etik davranış qaydalarının pozulmasına görə sanksiyaların tətbiqində İntizam Komissiyasının səlahiyyətinin (rolunun) nəzərdə tutulmasını qeyd etmişdir. Lakin buna baxmayaraq, təcrübədə deputatların əlavə fəaliyyətlərinə dair təsirli nəzarəti və rəhbərliyi nümayiş etdirən heç bir sübut və ya konkret nümunə təqdim olunmamışdır.

11. Hökumət İkinci Uyğunluq Hesabatında artıq qeyd olunan Millət vəkillərinin davranış qaydaları və bununla əlaqədar bir neçə təlim təşəbbüsünün qəbul edilməsi kimi istintadları yenidən təkrarlayır. Təcrübədə qaydalara nəzarət və rəhbərliyin həyata keçirilməsi ilə bağlı yeni məlumatlara gəldikdə, Hökumət, bir millət vəkilinin sahibkarlıq fəaliyyəti ilə məşğul olması ilə əlaqədar səlahiyyətlərinin ləğv edilməsinə istinad etmişdir. Sözügedən millət vəkili eyni zamanda borcu geri qaytarmamasına görə mülki iddia üzrə məhkəmə qarşısında cavabdeh şəxs qismində çıxış etmişdir. Bu məsələ ilə əlaqədar xidməti araşdırmanın Parlamentin İntizam Komissiyası tərəfindən həyata keçirildiyi deyilir. Səlahiyyətli orqanlara əsasən, xidməti araşdırmanın nəticələrinə əsasən Parlamentin İntizam Komissiyası sözügedən millət vəkilinin mandatına xitam verilməsi ilə əlaqədar Mərkəzi Seçki Komissiyasına müraciət etmişdir. Daha sonra prokurorluq tərəfindən sözügedən millət vəkili barədə cinayət işi başlanılmışdır. Bundan əlavə, Hökumət İntizam Komissiyasının əsasnaməsini hazırlanması üçün 10 aprel 2020-ci il tarixdə parlamentin işçi qrupunun yaradılmasını bildirmişdir. 17 Sentyabr 2020-ci il tarixdə İntizam Komissiyasının Əsasnaməsi haqqında qanun layihəsi işçi qrupu və Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu Komitəsinin birgə iclasında təsdiq edilmişdir. Qanun layihəsinin Parlament tərəfindən 2020-ci ilin oktyabr ayı ərzində qəbul edilməsi gözlənilir.

12. GRECO Hökumətin təqdim etdiyi məlumatları nəzərə alır. İntizam Komissiyasının millət vəkilinin əlavə fəaliyyəti ilə əlaqədar faktların müəyyənləşdirilməsində iştirakı düzgün addım olsa da, mətbuatda yer alan bir neçə xəbərdə millət vəkilinin mandatına xitam vermə prosedurunun müvafiq millət vəkilinin özünün tələbinə əsaslandırılması göstərilir[1]. GRECO-ya İntizam Komissiyası tərəfindən müəyyən edilmiş faktlara, habelə araşdırmanın millət vəkilinin mandatının ləğv edilməsinə təsiri barədə heç bir məlumat verilməmişdir. Görünən budur ki, millət vəkilinin istefa tələbi əlavə fəaliyyət ilə məşğul olmasından daha çox, borcunu ödəmədiyi üçün məhkəmə qarşısına çıxarılan mülki iddia ilə başlanılmışdır. Hər bir halda, tək bir hal ilə qeyd olunan tövsiyənin icra olunması qənaətinə gəlmək kifayət deyildir.

13. GRECO iii tövsiyənin qismən icra olunmuş formada qaldığı qənaətinə gəlir.

**Tövsiyə iv.**

14. *GRECO tövsiyə etmişdir ki, i) Millət vəkilləri üçün gəlir bəyannamələrinin forması tez bir zamanda müəyyənləşdirilsin və bəyannamələrin məxfiliyi millət vəkilləri və onların qohumlarının şəxsi həyatları və təhlükəsizliyi nəzərə alınma şərti ilə aradan qaldırılsın ii) Millət vəkilləri üçün maliyyə xarakterli məlumatların təqdim olunma mexanizminin işə düşməsi təmin edilsin (müstəqil nəzarət orqanı tərəfindən nəzarətin həyata keçirilməsi də daxil olmaqla), və bu tələblərə əməl edilmədiyi təqdirdə çəkindirici və proporsional cəza növlərinin tətbiqi və tətbiq edilmiş cəzanın əsaslandırılması barədə məlumatlar ictimailəşdirilsin.*

15. GRECO bu tövsiyənin İkinci Uyğunluq Hesabatında icra olunmadığını xatırladır. GRECO, Hökuməti bu tövsiyəni icra etməyə ciddi şəkildə çağırış edir. Çünki bunu etməmək, aktivlərin açıqlanması üçün effektiv bir sistem tətbiq etmək üçün siyasi iradənin olmasını şübhə altına alacaqdır.

16. Hökumət bu tövsiyənin icrasına dair yeniliklər barədə hər hansı bir məlumat verməyib.

17. GRECO bu tövsiyənin icrasında hər hansı bir irəliləyişin olmamasından təəssüflənir və bir daha Azərbaycan Hökumətini parlament üzvləri ilə bağlı aktivlərin açıqlanması sisteminin qurulması üçün lazımi addımlar atmağa çağırır.

18. GRECO iV tövsiyənin icra olunmamış formada qaldığı qənaətinə gəlir.

---

[1] Aşağıdakı linklərdən mətbuatda işıqlandırılan məqalələrə baxın:
https://ru.baku.news/povestka-dnya/18464-rafael-cebrayilov-baresinde-qaldirilan-iddia-uzre-mehkeme-bashlayib.html
https://az.sputniknews.ru/incidents/20191002/421900859/deputat-lishilsja-mandat-dzhabrailov.html
https://www.kavkaz-uzel.eu/articles/340721/

**Tövsiyə v.**

19. *GRECO tövsiyə etmişdir ki, i) Məhkəmə-Hüquq Şurasının məqsədlərində/mandatında məhkəmə hakimiyyətinin müstəqiliyinin qorunması və gücləndirilməsi ilə bağlı müddəalar aydın şəkildə göstərilsin; və ii) Məhkəmə-Hüquq Şurasının rolu məhkəmə hakimiyyətinin tərkibində gücləndirilsin və bu xüsusilə onun üzvlərinin yarısından az olmayan hissəsinin birbaşa seçilmiş və ya həmkarları tərəfindən təyin edilən hakimlərdən ibarət olması və MHŞ-nın sədrinin hakim olan üzvlərdən seçilməsi yolu ilə təmin edilsin.*

20. Xatırladırılır ki, bu tövsiyə Uyğunluq Hesabatında qismən icra edilmiş və Hökumət bu məsələ ilə əlaqədar heç bir yeni məlumat təqdim etməmədiyindən İkinci Uyğunluq Hesabatdında da eyni hal qalmaqdadır. GRECO, məhkəmə müstəqilliyini qorumaq məqsədilə MHŞ-nın səlahiyyət müddətinin uzadılmasını məmnuniyyətlə qarşılayır. Lakin bunlarla birlikdə, GRECO qeyd olunan tövsiyənin ikinci hissəsinin, yəni MHŞ-nın üzvlərinin ən azı yarısının həmkarları tərəfindən birbaşa seçilməsini və ya təyin edilməsini, habelə sədrinin MHŞ-nın üzvü olan hakimləri sırasından seçilməsini təmin edilməsi ilə əlaqədar tövsiyənin icrasında hər hansı bir irəliləyişin olmamasına görə təəssüflənir.

21. Hökumət qeyd olunan tövsiyə ilə əlaqədar hər hansı bir yeni məlumat təqdim etməmişdir.

22. GRECO bu tövsiyənin icrasında heç bir irəliləyişin olmamasına təəssüflənir və v tövsiyənin qismən yerinə yetirildiyi qənaətinə gəlir.

**Tövsiyə vi.**

23. *GRECO tövsiyə etmişdir ki, məhkəmə hakimiyyətinin müstəqilliyi aşağıdakılar vasitəsilə daha da gücləndirilməlidir i) bütün kateqoriyalardan olan hakimlərin və məhkəmə sədrlərinin təyin edilməsində Məhkəmə-Hüquq Şurasının rolunu artırmaqla; və ii) hakimlər üçün beş illik sınaq müddətini xeyli azaldaraq və aydın, obyektiv və şəffaf meyarlar əsasında hakim vəzifəsinə daimi təyinatlar irəli sürərək.*

24. Xatırladılır ki, bu tövsiyə İkinci Uyğunluq Hesabatında qismən icra edilmişdir. Tövsiyənin birinci hissəsinə əsasən, GRECO, Məhkəmə Hüquq Şurasının bütün kateqoriyalı hakimlərin təyin edilməsində iştirakının təmin edilməsində irəliləyişin olmamasından təəssüflənir. Tövsiyənin ikinci hissəsinə gəldikdə, GRECO, hakimlərin qiymətləndirilməsi metodologiyasının MHŞ tərəfindən təsdiq edilmədiyini və hakimlərin qiymətləndirilməsi üçün aydın, obyektiv və şəffaf meyarların qanunvericilikdə müəyyən edilmədiyini nəzərdə saxlayır.

25. Hökumət indi məlumat verir ki, MHŞ özündə açıq, obyektiv və şəffaf kriteriyaları cəmləşdirən hakimlərin qiymətləndirmə metodologiyasını 06 Mart 2020-ci il tarixdə təsdiqləyib. Buna baxmayaraq, qeyd olunan tövsiyənin birinci hissəsi ilə əlaqədar hər hansı bir yeni məlumat təqdim edilməmişdir.

26. GRECO, hakimlərin qiymətləndirmə metodologiyasının qəbul edildiyini göstərən məlumatları nəzərə alır; lakin, orada olan meyarların mətni GRECO-ya təqdim edilməmişdir. Bundan əlavə, tövsiyənin birinci hissəsi həll edilməlidir.

27. GRECO vi tövsiyənin qismən yerinə yetirilməsi qənaətinə gəlir.

**Tövsiyə ix.**

28. *GRECO tövsiyə etmişdir ki, i) hakimlər üçün gəlir bəyannamələrinin forması tez bir zamanda, prioritet qaydasında müəyyənləşdirilsin və bu məlumatların məxfiliyi hakimlər və onların qohumlarının şəxsi həyatları və təhlükəsizliyi nəzərə alınmaqla aradan qaldırılsın ii) Hakimlər barəsində maliyyə xarakterli məlumatların bəyan edilməsi rejimi tətbiq olunsun (o cümlədən bu məqsədlər üçün Korrupsiyaya qarşı*

*Mübarizə üzrə Komissiya uyğun inzibati və ekspert resursları ilə təmin olunsun), bununla yanaşı bu sahədə mövcud tələblərin icra olunmamasına görə sanksiyalar nəzərdə tutulsun, sanksiyaların tətbiq olunması halları, o cümlədən tətbiq olunması səbələri ictimaiyyətə açıqlansın.*

29. GRECO xatırladır ki, bu tövsiyə İkinci Uyğunluq Hesabatında icra edilməmişdir və bu tövsiyənin icrası üçün heç bir irəliləyiş yoxdur.

30. Hökumət yenidən bununla əlaqədar heç bir məlumat təqdim etməmişdir.

31. GRECO səlahiyyətli orqanların bu tövsiyəni həyata keçirmək üçün səy göstərməməsindən təəssüflənir və ix tövsiyəsinin yerinə yetirilmədiyi qənaətinə gəlir.

*Prokurorlar barəsində korrupsiyanın qarşısının alınması.*

**Tövsiyə xii.**

32. *GRECO tövsiyə etmişdir ki, i) cinayət işlərinin istintaqı zamanı prokurorluq orqanlarının fəaliyyətinə hər hansı bir lazımsız təsir və müdaxilənin aradan qaldırılması üçün Prokurorluq haqqında Qanuna dəyişikliklər edilməsi nəzərdən keçirilsin; ii) bütün prokurorluq orqanlarının təşkil edilməsi, ləğv edilməsi və əsas təşkilati strukturu qanunla müəyyən edilsin.*

33. Xatırladılır ki, bu tövsiyə İkinci Uyğunluq Hesabatında qismən icra olunmuşdur. GRECO Prezident və Parlamentin Prokurorluğun fəaliyyəti üzərində "nəzarət" səlahiyyətlərinin müəyyən dərəcədə məhdudlaşdıran Prokurorluq haqqında Qanunda edilən dəyişiklikləri məmnuniyyətlə qarşılayır. Lakin, GRECO, bütün prokurorluqların yaradılması, ləğv edilməsi və əsas təşkilati strukturunun tənzimlənməsi ilə bağlı irəliləyişin olmamasından təəssüflənir.

34. Hökumət bu tövsiyə ilə əlaqədar hər hansı bir yeni məlumat təqdim etməmişdir.

35. GRECO, bu tövsiyənin icrasında irəliləyişin olmamasından təəssüflənir və xii tövsiyənin qismən yerinə yetirilməsi qənaətinə gəlir.

**Tövsiyə xiv.**

36. *GRECO tövsiyə etmişdir ki, i) Prokurorluq orqanlarına bütün yüksək vəzifələrə vakansiyalar ictimaiyyətə açıq elan olunsun və bu vəzifələri tutma aydın, obyektiv və şəffaf meyarlara uyğun olsun; və ii) yüksək vəzifələrə namizədlərin namizədliyi əksəriyyətinin icraedici orqanla əlaqəsi olmayan şəxslər tərəfindən baxılsın və qiymətləndirilsin.*

37. Xatırladılır ki, bu tövsiyə İkinci Uyğunluq Hesabatında qismən icra edilmişdir. Tövsiyənin birinci hissəsinin icrası ilə əlaqədar, GRECO Prokurorluqdakı bəzi vakansiyaların rəqabətli şəkildə həyata keçirilməsi üçün yeni qaydaların qəbul edilməsini məmnuniyyətlə qarşılayır. Lakin, qaydalar ən yüksək vəzifələrə (məsələn, Baş Prokuror və onun müavinlərinə) aid deyildir. Tövsiyənin ikinci hissəsinə gəldikdə, GRECO, Azərbaycanın Korrupsiyaya Qarşı Mübarizə Komissiyasının rəhbər vəzifələrə namizədlərin qiymətləndirilməsi üçün icra hakimiyyəti ilə əlaqəsi olmayan şəxslərin əksəriyyətindən ibarət bir qurumun yaradılmaması və icra hakimiyyətinin prokurorluqda yüksək vəzifəyə təyin ilə əlaqədar təsirlərin məhdudlaşdırılmasında irəliləyişin əldə edilməməsinə görə təəssüflənir. Buna baxmayaraq, GRECO bu məsələnin nəzərdə keçirildiyini qəbul edir.

38. Hökumət indi bildirir ki, Baş prokurorun 29 Oktyabr 2018-ci il tarixli Əmri ilə təsdiq edilmiş Prokurorluqdakı vakansiyaların müsabiqə yolu ilə tutulması qaydaları bu qurumdakı bütün vakansiyaları əhatə etmək üçün 04 noyabr 2019 tarixində dəyişdirilmişdir. Səlahiyyətli orqanların verdiyi məlumata əsasən, bunlara əvvəllər qaydalardan xaric edilmiş Baş Prokurorun müavini və Naxçıvan Muxtar Respublikası Prokurorunun vakansiyaları da daxildir. Səlahiyyətli orqanlar daha sonra bildirirlər

ki, 2018-ci ildə bu qaydalar qəbul edildikdən bəri, müxtəlif prokurorluq orqanlarında vakant vəzifələrin tutulması üçün bir neçə müsabiqə imtahanları keçirilmiş, habelə vakant yerlər barədə məlumatların internet və KİV vasitəsilə yayılması ümumillikdə müsbət rəy almışdır.

39. GRECO, səlahiyyətli orqanlar tərəfindən verilmiş məlumatları nəzərə alır və Prokurorluqdakı vakansiyaların yalnız 3-8-ci təsnifatlardakı vakant yerləri ilə məhdudlaşmayan, eyni zamanda yüksək təsnifatdakı vakant yerləri ilə bağlı vəzifələrin tutulması qaydaları ilə əlaqədar 04 noyabr 2019 tarixində edilmiş düzəlişləri alqışlayır. GRECO, prokurorluq orqanlarında şəffaflığın daha da artırılması üçün işə qəbul olunma ilə əlaqədar yeni prosedurların sistematik şəkildə tətbiq edilməsini təşviq edir.

40. GRECO, xiv tövsiyəsinin qənaətbəxş bir şəkildə həll edildiyi qənaətinə gəlir.

**Tövsiyə xx.**

41. *GRECO tövsiyə etmişdir ki, i) prokurorlar tərəfindən aktivlərin bəyan edilməsi qaydası prioritet məsələ kimi müəyyən edilsin və prokuror və onların qohumlarının təhlükəsizlik və şəxsi sirləri nəzərə alınmaq şərti ilə, bütün prokurorlar tərəfindən aktivlərin bəyan edilməsi üzrə məxfilik aradan qaldırılsın; və ii) aktivlərin bəyan edilməsinə dair müəyyən olunmuş qaydaya riayət edilməklə, həmin qaydanın icrasına nəzarət etmək üçün Baş Prokurorluğun nəzdində müvafiq struktur yaradılsın.*

42. GRECO xatırladır ki, bu tövsiyə İkinci Uyğunluq Hesabatında icra edilməmişdir və bu tövsiyənin icrası üçün heç bir irəliləyiş olmamışdır.

43. Hökumət bu tövsiyə ilə əlaqədar hər hansı bir irəliləyiş barədə heç bir məlumat verməmişdir.

44. GRECO belə nəticəyə gəlir ki, xx tövsiyə yerinə yetirilməmişdir.

## III. <u>NƏTİCƏ</u>

45. **Yuxarıda qeyd olunanları nəzərə alaraq, GRECO Dördüncü Dəyərləndirmə mərhələsi çərçivəsində Azərbaycana ünvanlanmış tövsiyələrin yerinə yetirilməsində bəzi irəliləyişin olmasını nəzərə alır. İyirmi bir tövsiyədən yalnız on dördü qənaətbəxş şəkildə icra edilmişdir,** dörd tövsiyə qismən icra edilmiş və üç tövsiyə isə icra edilməmişdir.

46. Daha dəqiq desək, i, ii, vii, viii, x, xi, xiii, xiv, xv, xvi, xvii, xviii, xix və xxi tövsiyə qənaətbəxş şəkildə, iii, v, vi və xii tövsiyə qismən icra edilmiş , iv, ix və xx tövsiyə isə icra edilməmişdir.

47. Parlament üzvlərinə münasibətdə, Azərbaycan GRECO tərəfindən müəyyən edilmiş çatışmazlıqların aradan qaldırılması üçün konkret addımlar atmışdır. Xüsusilə, qanun layihələri ilə bağlı ictimai məsləhətləşmələr çərçivəsində irəliləyiş əldə edilmiş və Deputatların etik davranış qaydaları haqqında Qanun qəbul edilmişdir. Lakin, parlament üzvləri ilə əlaqədar aktivlərin açıqlanması üçün effektiv bir sistem qurulmasına hələ də çox ehtiyac vardır.

48. Hakimlərlə əlaqədar olaraq, hakimlərin seçilməsində Məhkəmə Hüquq Şurasının (MHŞ) rolunu artırması ilə əlaqədar, bütövlüklə əlaqəli mövzularda təlim və etik məsələlərə dair tədbirlərin həyata keçirilməsi və göründüyü kimi məhkəmə təyinatları üçün metodologiyanın tətbiq edilməsi üçün işlər görülmüşdür. Lakin, məhkəmə orqanlarının bu qurumdakı rolunu gücləndirmək üçün MHŞ-nın üzvləri tərəfindən hakimlərin seçilməsi və ya təyin olunması, habelə MHŞ-nın hakim tərəfindən idarə olunmasına ehtiyac vardır. Bundan əlavə, MHŞ bütün kateqoriyalı hakimlərin təyin edilməsində iştirak etməlidir. Nəhayət, hakimlərin aktivlərinin bəyan edilməsi ilə bağlı məsələdə şəffaflığın çatışmadığı müəyyən edilmişdir.

49. Prokurorlar ilə əlaqədar olaraq isə GRECO xüsusilə intizam pozuntuları, etik davranış qaydaları və vaxtaşırı qiymətləndirmə sistemi ilə bağlı bir sıra sahələrdə ciddi addımların atıldığını qeyd edir. Bundan əlavə, hüquq-mühafizə orqanlarının əməkdaşlarının işə qəbulu üçün yeni meyarlar tətbiq edilmiş, yüksək vəzifələrə təyinat ilə əlaqədar prokurorların müsabiqə yolu ilə seçimi qaydaları genişləndirilmiş və əlavə fəaliyyətinə dair yeni təlimatlar qəbul edilmişdir. Şəffaflıq ilə əlaqəli mövzulara dair təlimlərdə də irəliləyişlər əldə edilmişdir. Lakin, icra hakimiyyətinin Prokurorluq üzərindəki lüzumsuz təsiri olduqca problemli hal olaraq qalmaqdadır və prokurorlarla bağlı aktivlərin açıqlanması məsələsi ümumiyyətlə həll edilməmişdir.

50. İkinci Uyğunluq Hesabatına bu Əlavənin qəbulu Azərbaycanla bağlı Dördüncü Raund Dəyərləndirmə prosedurunu sonlandırır. Artıq qeyd edildiyi kimi, xüsusilə MHŞ-nın tərkibi və hakimlərin təyinatlarındakı rolu, icra hakimiyyətinin prokurorluq üzərindəki təsirinin azaldılması və parlament üzvləri, hakimlər və prokurorların aktivlərinin bəyan edilməsində şəffaflığının artırılması ilə bağlı bəzi tövsiyələrin icra olunması hələ də gözlənilir. Buna görə GRECO, Azərbaycan Hökumətinin GRECO-nu qeyd olunan tövsiyələrin icrası ilə bağlı gələcəkdə icra ediləcək hər hansı bir irəliləyiş ilə əlaqədar məlumatların verilməsinə dəvət edir.

51. Nəhayət, GRECO Azərbaycan Hökumətini bu Əlavənin milli dilə tərcümə edilməsinə və tərcümənin mümkün qədər qısa müddət ərzində ictimaiyyətə açıqlanmasına dəvət edir.